**Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə 2025-cü ilin yanvar-fevral aylarının yekununa dair**

**MƏLUMAT**

2025-ci ilin yanvar-fevral aylarında hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 1521 cinayət faktı aşkarlanmışdır. Onlardan 447-i narkotik vasitələrin qanunsuz satışı, 1069-u narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 3-ü narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 2-i bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 1 ton 461 kq 247,933 qram narkotik vasitələrin və psixotrop maddələrin 1 ton 269 kq 316, 871 qramını marixuana, 102 kq 963,95 qramını heroin, 32 kq 819,082 qramını tiryək, 13 kq 325,5 qramını həşiş, 4 kq 158,247 qramını digər narkotik vasitələr və 38 kq 664,283 qramını psixotrop maddələr təşkil etmişdir. Həmçinin, göstərilən dövr ərzində 2074 ədəd metadon, 15 ədəd çətənə bitkisi, 3 kq 210 qr və 13155 ədəd həb güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülmüşdür.

Qanunsuz dövriyyədən çıxarılmış 1 ton 461 kq 247,933 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 39 milyon 45 min AZN kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 545 nəfər cəlb edilmiş, onlardan 18 yaşadək-1 nəfər, 18-25 yaşadək 32 nəfər, 26-29 yaşadək 91 nəfər, 30 yaş və ondan yuxarı isə 421nəfər təşkil edir. Həmin şəxslərdən 523-ü kişi, 22-i qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 17 nəfəri xarici ölkə vətəndaşıdır.

Məsuliyyətə cəlb edilmiş 17 xarici ölkə vətəndaşından 8-i İran İslam Respublikası, 3-ü Rusiya, 4-ü Gürcüstan, 1-i Türkiyə, 1-i Ukrayna vətəndaşı olmuşdur. Xarici ölkə vətəndaşlarından ümumilikdə 202 kq 081,647 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülmüşdür.

Hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 38 fakt aşkar edilmiş, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 429 kq 905,233 qr və 2074 həb metadon narkotik vasitə və psixotrop maddə və 13155 ədəd həb güclü təsir edən maddə çıxarılmışdır.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 39 qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 455 kq 780,203 maddə müsadirə edilmişdir.

205 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilmiş və onlardan 406 kq 734,4 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilmişdir.

Təhlil göstərir ki, 2024-cü ilin yanvar-fevral ayları ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 459, qanunsuz satış ilə bağlı faktların sayı 119, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 342, qrup halında olan cinayətlərin sayı 1 fakt, narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 5 fakt, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 387 nəfər azalmışdır.

Bu kateqoriyadan olan digər cinayətlərin sayı 2 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 248 kq 248,613 qr artmışdır.

2024-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 2025-ci ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, o cümlədən heroinin çəkisi 53 kq 800,4 qr (34,3%), həşişin çəkisi 9 kq 523,95 qr (41,7%), psixotrop maddələrin çəkisi 14 kq 656,382 qr (27,5%) azalmışdır.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 1 ton 269 kq 316,871 qramını (86,8 %) marixuana təşkil etmişdir. Onun da 1 ton 154 kq 043,671 qramı (90,9%) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olmuşdur. 115 kq 273,2 qramı (9,0 %) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmişdir.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2025-ci ilin 28 yanvar tarixində qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya tərəfindən 24 qərar əsasında barəsində məhvetmə qərarı qəbul edilmiş 5 ton 168 kq 332,011 qr müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr yandırma üsulu ilə məhv edilmişdir.

Eyni zamanda qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə edilmiş az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaların birgə təşkilatçılığı 701 məhkəmə hökmü üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş ümumi çəkisi 19 kq 583,692 qr müxtəlif narkotik vasitələr, psixotrop maddələr və 129 ədəd çətənə bitkisinin məhv olunması təmin edilmişdir.

Yeni statistik hesabat formasına uyğun Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 14750 nəfər istiqamətləndirilmişdir. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 854 nəfərdən 426 nəfərinin istifadəçi olması müəyyən olunmuş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təqdim edilmiş məlumata əsasən yanvar ayında narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 209 nəfər təşkil etmişdir. Onlardan 18 nəfəri opioidlərin, 42 nəfəri kannabinoidlərin, 149 nəfəri isə eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi nəticəsində psixi və davranış pozuntuları yaranmış şəxslərdir. Həmin şəxslərdən 15 nəfəri qadındır. 40 nəfər dispanser nəzarətindən çıxarılmışdır.

Bundan əlavə narkotiklərin epizodik qəbuluna görə profilaktik qeydiyyata alınanların (narkotik asılılığı yaranmayanların) sayı 236 nəfər təşkil etmişdir. 125 nəfər (4-ü qadın) isə profilaktik qeydiyyatdan çıxarılmışdır.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 314, QİÇS-lə Mübarizə Mərkəzində 368, Sumqayıt Narkoloji Mərkəzində 137 nəfər) 819 xəstə müalicə alır.

Narkotik vasitələrdən aşırı doza nəticəsində yanvar-fevral aylarında 1-i qadın və 16-sı kişi olmaqla ümumilikdə 17 nəfər vəfat etmişdir ki, onlardan 18 yaşadək 1, 30-40 yaşadək 7 nəfər, 41-50 yaşadək 5 nəfər, 50-53 yaşadək 4 nəfər təşkil edir. 2024-cü ilin yanvar-fevral ayları ilə müqayisədə cari ilin müvafiq dövründə narkotik vasitələrdən aşırı doza nəticəsində vəfat edənlərin sayı 11 nəfər ( 39,2 %) azalmışdır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2025-ci ilin fevral ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 6 (2,5%) nəfəri inyekson narkotik istifadəçiləri olmuşdur.

2025 ilin yanvar-fevral ayları ərzində “802” qaynar xətt telefon zəng xidmətinə 153 vətəndaş müraciəti daxil olmuşdur ki, onların 16-sı narkotik vasitələrin qanunsuz dövriyyəsi, 20-i narkotik asılılıqdan müalicə, 117-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəlarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olmuşdur. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 36 məktub ünvanlanmışdır.

802 qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılmış və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülmüş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir.

**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu**